**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№361/11** **14 dekabr 2023-cü il**

**2023-cü il ərzində səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlərin vəziyyətinə dair arayış və həmin auditlərin keyfiyyətinin artırılması barədə**

Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin "Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalarda iştirak edəcək auditorların siyahısının təsdiq edilməsi haqqında" 2023-cü il 23 yanvar tarixli 1/5 nömrəli sərəncamının 3.2-ci bəndinə uyğun olaraq Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov, B.Qasımova) tərəfindən hazırlanmış "2023-cü il ərzində səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlərin vəziyyətinə dair arayış"ı müzakirə edərək səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlərin keyfiyyətinin artırılması, auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidmətləri göstərilərkən ölkə qanunvericiliyinin, Beynəlxalq Audit Standartlarının, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) və Auditorların Müstəqillik Qaydalarının tələblərinə əməl edilməsi, auditin səmərəliliyinin təmin edilməsi, habelə auditor təşkilatlarında və sərbəst auditorlarda işin düzgün və effektiv təşkili və həyata keçirilməsi, bu istiqamətdə vahid yanaşmanın tətbiq olunması, auditin keyfiyyətinin qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq təşkil edilməsi məqsədilə Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "2023-cü il ərzində səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlərin vəziyyətinə dair arayış" nəzərə alınsın (əlavə olunur).
2. 2023-cü ərzində səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditləri vaxtında və keyfiyyətlə yerinə yetirən adları aşağıda qeyd olunan auditorlara təşəkkür elan edilsin:

1. Ağayev Akif Ağa oğlu - "Şəfəq Audit Konsaltinq" MMC-nin direktor-auditoru;
2. Alxaszadə Nigar Taleh qızı - sərbəst auditor;
3. Əhmədov Aqşin Qalib oğlu - "İAS" MMC-nin direktor-auditoru;
4. Hüseynov Aydın Həsən oğlu - sərbəst auditor;
5. Hüseynov Fərhəddin Əbülqasım oğlu – "LŞ Audit" MMC-nin direktor-auditoru;
6. Hüseynov Zamin Ramazan oğlu - "ABAK-Az Crovve LTD" MMC-nin direktor-auditoru;
7. Kərimov Şamxal Vəli oğlu - sərbəst auditor;
8. Qurbanov Abbasəli Şükür oğlu - "Analitik-Audit Konsaltinq" MMC-nin direktor-auditoru;
9. Qurbanov Elçin İbad oğlu - "VXA - Audit" MMC-nin direktor-auditoru;
10. Soltanov Qulu Mehbalı oğlu - sərbəst auditor;
11. Şirinov Yasin Rza oğlu - "Azəri Audit Servis" MMC-nin auditoru;
12. Talıbov Vidadi Musa oğlu – sərbəst auditor.

3. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) tapşırılsın ki:

3.1. auditor təşkilatları və sərbəst auditorlar tərəfindən 2023-cü ildə səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlər üzrə icrası davam etdirilən və gecikdirilən işlərin 2024-cü ilin I rübündə başa çatdırılması təmin edilsin.

3.2. 2023-cü il ərzində üzrsüz səbəblərdən səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalarda iştirak etməkdən imtina edən auditorların adları "Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalarda iştirak edəcək auditorların siyahısı"ndan çıxarılsın.

3.3. 2024-cü ilin yanvar ayında auditor təşkilatları və sərbəst auditorlar üçün "Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlər" mövzusunda seminarın keçirilməsi təmin edilsin.

4. Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, "Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlər" mövzusunun 2024-cü il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramına daxil olunması təmin edilsin.

5. 2023-cü il ərzində səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlərin təşkili və nəticələrinə dair arayışın hazırlanıb təqdim edilməsində əməyi olan Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin əməkdaşları fərqləndirilsin.

6. Bu qərarın mətni Auditorolar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**